

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 82 (23.724)

*6 may 2021-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də ölkəmizdə səfərdə olan Gürcüstanın Baş naziri İrakli Qaribaşvilini qəbul edib.

Prezident İlham Əliyev bildirib ki, xalqlarımız arasında münasibətlər uzun tarixə əsaslanır. Bu, böyük dinamikanı nümayiş etdirən və faktiki olaraq bir çox sahələri əhatə edən cari münasibətlərin inkişafı üçün çox yaxşı zəmindir. Dövlətimizin başçısı vurğulayıb ki, enerji və nəqliyyat layihələri kimi birgə layihələrin icrası regionun siyasi, iqtisadi, nəqliyyat və energetika xəritəsini dəyişmişdir. Cənub Qaz Dəhlizi layihəsi təkcə Cənubi Qafqaz regionunda yox, daha geniş Avrasiya regionunda ümumi inkişaf, sabitlik, proqnozlaşdırma, əməkdaşlıq üçün mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Gürcüstan iqtisadiyyatında ən böyük investorlardan biri olmağa davam edir.

Baş nazir İrakli Qaribaşvili deyib ki, mövcud mükəmməl münasibətləri və qardaşlığı gücləndirəcək daha çox layihələrin birgə icrasını davam etdirməkdə tamamilə qətiyyətli və həvəslidirlər. Baş nazir qəbul üçün Prezident İlham Əliyevə minnətdarlığını bildirərək dövlətimizin başçısını Gürcüstana səfərə dəvət edib.

## T.A.Əliyevin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında “ASAN xidmət” Mərkəzinin direktoru təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Tural Akim oğlu Əliyev Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında “ASAN xidmət” Mərkəzinin direktoru təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 5 may 2021-ci il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Mayın 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Asiya İnkişaf Bankının Azərbaycandakı Daimi Nümayəndəliyinin ölkə üzrə yeni direktoru xanım Kandis Makdeyqan ilə görüşmüşdür.

Ali Məclisin Sədri qonağı yeni vəzifəsinə təyin olunması münasibətilə təbrik etmiş, Asiya İnkişaf Bankı ilə muxtar respublika arasındakı əməkdaşlığı diqqətə çatdırmışdır. Ali Məclisin Sədri Asiya İnkişaf Bankının vitse-prezidenti Vençay Janqın muxtar respublikaya səfərini xatırlatmışdır. Muxtar respublikada aqrar sahədə görülən işlərdən bəhs edən Ali Məclisin Sədri təqdim olunan yeni layihələrin bu baxımdan əhəmiyyətini qeyd etmişdir.

Ali Məclisin Sədri qonağın Naxçıvana səfərindən məmnunluğunu bildirmişdir.

Asiya İnkişaf Bankının ölkə üzrə direktoru xanım Kandis Makdeyqan Ali Məclisin Sədrinə səmimi qəbula görə minnətdarlıq etmişdir. Naxçıvan Muxtar Respublikasına ilk səfərinin layihələrlə tanışlıq məqsədi daşıdığını qeyd edən qonaq əməkdaşlığın geniş perspektivləri olduğunu vurğulamışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Elmi konfrans keçirilib



*Naxçıvan Dövlət Universitetində Yeni Azərbaycan Partiyası Universitet Şəhərciyi ərazi ilk təşkilatı və Beynəlxalq münasibətlər kafedrasının birgə təşkilatçılığı ilə “Heydər Əliyev siyasi kursuna varislik: Qələbəyə aparan uğurlu diplomatiya” adlı elmi konfrans keçirilib.*

Universitetin rektoru, dosent Elbrus İsayev konfransda çıxış edərək bildirib ki, İkinci Qarabağ müharibəsində qazandığımız tarixi zəfər ümummilli lider Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasətinin uğurlu davamının nəticəsidir. Vətən müharibəsində xalqımızın Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında bir yumruq kimi birləşməsi, şanlı, rəşadətli Azərbaycan Ordusunun şücaəti erməni faşizmi üzərində qələbə qazanılmasında həlledici rol oynadı. Ölkə başçısı, Ali Baş Komandanın prinsipial mövqeyi, səsləndirdiyi tutarlı dəlillər və əsaslı fikirlər, xarici kütləvi informasiya vasitələrinə verdiyi çoxsaylı müsahibələri, döyüş meydanında Azərbaycan Ordusunun əldə etdiyi qələbələr diplomatiya meydanında da uğurlara çevrildi və ölkəmizin İkinci Qarabağ müharibəsindəki hərbi-diplomatik Qələbəsini şərtləndirdi.

Beynəlxalq münasibətlər və hüquq fakültəsinin dekanı, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Yusif Hüseynov “Heydər Əliyevin xarici siyasət strategiyası və prioritetlər” mövzusunda çıxış edərək ümummilli liderin tarixi xidmətlərindən məlumat verib. Vurğulanıb ki, Heydər Əliyev hakimiyyətinin hər iki dövründə Azərbaycanı dünyada tanıtmağı, müstəqillik illərində isə onu ən aparıcı dünya dövlətləri sırasına yüksəltməyi ali məqsəd sayırdı.

Yeni Azərbaycan Partiyası Universitet Şəhərciyi ərazi ilk təşkilatının fakültə sədri, Beynəlxalq münasibətlər kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Şamxal Məmmədov “Milli maraqları əsas tutan balanslaşdırılmış diplomatiya” adlı çıxışında qeyd edib ki, bu gün ideoloji dəyərlər, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycançılıq ideyasının əsas prinsipləri Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən qorunur və uğurla inkişaf etdirilir.

Beynəlxalq münasibətlər və diplomatiya ixtisası üzrə II kurs magistrant Aysu Cavadlının “İlham Əliyevin qətiyyətli diplomatiyası və 44 günlük Zəfər yürüşü” adlı çıxışı konfrans iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Konfransda Yeni Azərbaycan Partiyasının sıralarına daxil olmuş tələbələrə üzvlük vəsiqələri təqdim edilib, “Uğurlu diplomatiyanın Zəfər Meydanı” adlı sənədli filmə baxış olub.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Operativ vergi nəzarəti tədbirləri davam etdirilir

Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidməti və onun yerli vergi orqanları tərəfindən aprel ayında muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə yoxlama və monitorinqlər davam etdirilib. Operativ vergi nəzarəti tədbirləri zamanı 9 vergiödəyicisində “Fərqlənmə nişanı” olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşınması faktları aşkar olunub və həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görülüb.

Həmçinin vergidənyayınma və dövriyyənin gizlədilməsi hallarına qarşı mübarizə məqsədilə 2 vergiödəyicisində xronometraj metodu ilə müşahidələr aparılıb və müşahidəyədək olan dövriyyə ilə müqayisədə artım qeydə alınıb, nəticədə, qanunvericiliyə uyğun olaraq müəyyən edilmiş əlavə vergi məbləğinin büdcəyə ödənilməsi təmin olunub.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

## Daha iki kənddə quruculuq işlərinə başlanılıb

Şərur rayonunun Çərçiboğan və Dərvişlər kəndlərindəki tam orta məktəb binalarının tamamilə yenidən qurulmasına başlanmışdır. Tədris müəssisələrində müasir avadanlıqlar qurulacaq, müəllim və şagirdlərin istifadəsinə işıqlı siniflər, direktor və müəllimlər üçün otaqlar, laboratoriyalar, fənn kabinələri, elektron lövhəli siniflər, kompüter otaqları, kitabxana, idman zalı veriləcəkdir. Çərçiboğan kəndində həm də uşaq musiqi məktəbi üçün yeni bina inşa olunur.

Hər iki yaşayış məntəqəsində həyata keçirilən quruculuq tədbirləri sırasında kənd mərkəzləri də var. Mərkəzlərdə hər kənd üçün inzibati ərazi dairəsi üzrə nümayəndəlik, Yeni Azərbaycan Partiyasının ərazi ilk təşkilatı, bələdiyyə, rabitə evi, polis və baytarlıq məntəqələri, mədəniyyət evi, kitabxana və iclas zalı fəaliyyət göstərəcək.

Tikilməsi nəzərdə tutulmuş tibb müəssisələri isə yaşayış məntəqələrində səhiyyə xidmətinin səviyyəsini və səmərəliliyini yüksəltmək məqsədi daşıyır. Adıçəkilən kəndlərin sakinləri yeni xidmət mərkəzlərində yerləşəcək ərzaq, sənaye və təsərrüfat malları mağazalarının, bərbərin, qadın gözəllik salonunun və dərzinin xidmətindən istifadə edəcəklər.

**Xəbərlər şöbəsi**

*Naxçıvan Muxtar Respublikasında sosial sahənin inkişafına göstərilən dövlət qayğısı aktiv məşğulluq tədbirlərinin sayının ildən-ilə artmasına, qeyri-formal məşğulluğun qarşısının alınmasına və əməyin mühafizəsi ilə bağlı tədbirlərin uğurla reallaşmasına səbəb olmuşdur. Əmək bazarının tələbinə uyğun kadrların formalaşdırılması sosial-iqtisadi inkişafın davamlı xarakter alması üçün geniş potensialın yaranmasına gətirib çıxarmışdır. Ötən müddətdə muxtar respublikada həyata keçirilən məşğulluqyönümlü iqtisadi inkişaf siyasəti öz bəhrəsini vermiş, icra olunan Dövlət proqramları yeni nailiyyətlərlə yadda qalmışdır. İcrası ötən ilin sonunda başa çatan "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" 12 min 479 yeni iş yerinin açılması və 14 min 699 işaxtaranın mövcud vakansiyalar üzrə işlə təmin edilməsi ilə nəticələnmişdir. Əhalinin məşğulluğuna yönəldilən tədbirlərin davamlılığına nail olmaq məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə bu sahədə yeni – "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" təsdiq edilmişdir.*

# Yeni Dövlət proqramı uğurla icra olunur

Dövlət proqramında nəzərdə tutulan tapşırıqların icrasına yanvar ayından etibarən başlanılmış, birinci rübdə boş iş yerlərinin toplanmasının təmin edilməsi məqsədilə vergi orqanlarında qeydiyyatdan keçən 699 fiziki və hüquqi şəxs haqqında məlumatlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim olunmuşdur. Həmçinin boş iş yerləri haqqında məlumatların vaxtında təqdim edilməsi məqsədilə muxtar respublikada fəaliyyət göstərən 43 sahibkarlıq subyekti ilə maarifləndirmə işləri aparılmışdır. Yanvar-mart aylarında Naxçıvan Muxtar Respublikasında 598 nəfər iqtisadiyyatın müxtəlif sahələrində işlə təmin olunmuşdur ki, onlardan 147-si gənc, 126-sı qadın, 17-si isə sağlamlıq imkanları məhdud şəxsdir. Bu dövrdə kənd xidmət mərkəzlərində fəaliyyət göstərən dərzi sexləri, bərbər və qadın gözəllik salonlarının kadrla təminatı diqqətdə saxlanılmış, mövcud olan vakansiyalar üzrə 3-ü bərbər, 3-ü bərbər-manikürçü və 3-ü dərzi olmaqla, 9 nəfər işlə təmin edilmişdir.

Güclü iqtisadiyyat əhalinin sosial rifahının təminatı deməkdir. İqtisadi resursların əhalinin məşğulluğunun təmin edilməsinə yönəldilməsi, öz növbəsində, sahibkarlığın inkişafı üçün də yeni imkanlar açmaqdadır. Dövlət proqramında nəzərdə tutulan tapşırıqların icrası məqsədilə birinci rübdə Sahibkarlığın İnkişafı Fondu tərəfindən 18 mikrosahibkarlıq subyektinə 388 min 200 manat həcmində güzəştli şərtlərlə dövlət maliyyə dəstəyi göstərilmişdir. Ümumilikdə, bu dövrdə dövlət maliyyə dəstəyi və özəl investisiya qoyuluşu hesabına 14 istehsal sahəsinin yaradılması başa çatdırılmış, yeni yaradılan istehsal sahələrində 73 iş yeri açılmışdır. Eyni zamanda yanvar-mart aylarında 29 sahənin yaradılması və 602 yeni iş yerinin açılması istiqamətində işlər davam etdirilmişdir.

Yerli resurslara əsaslanan istehsal və xidmət sahələrinin yaradılması istiqamətində Naxçıvan şəhəri üzrə 2 hüquqi və 3 fiziki şəxsə, ümumilikdə, 246 min, Şərur rayonu üzrə 3 fiziki şəxsə 40 min, Babək rayonu üzrə 3 fiziki şəxsə 40 min, Ordubad rayonu üzrə 2 fiziki şəxsə 18 min, Şahbuz rayonu üzrə 3 fiziki şəxsə 25 min, Kəngərli rayonu üzrə 2 fiziki şəxsə 19 min 200 manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir. Görülən işlər yerli istehsal məhsullarından səmərəli istifadə olunması üçün əvəzolunmaz rola malikdir.

Əmək bazarının tələblərinə uyğun peşə hazırlığının təşkili, bu istiqamətdə maarifləndirici tədbirlərin keçirilməsi işaxtaranların məşğulluq imkanlarının artırılması məqsədinə xidmət edir. Bunlarla yanaşı, mövcud kadrlar üçün ixtisasartırma kurslarının keçirilməsi müvafiq sahələrdə səmərəli fəaliyyətin təşkilinə imkan yaradır. Dövlət proqramında bu məqsədlə nəzərdə tutulan tədbirlər birinci rübdə uğurla həyata keçirilmiş, Naxçıvan Regional Peşə Tədris Mərkəzində təşkil edilən qazanxana maşinisti, bərbər, dərzi, bərbər-manikürçü kurslarına 35-i gənc olmaqla, 80 nəfər cəlb edilmişdir. Eyni zamanda Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən peşə təhsili müəssisələrində təşkil olunan kursları 282 nəfər bitirərək sertifikat almışdır. Xalq yaradıcılığı və sənətkarlığı üzrə peşə kurslarının təşkili də diqqətdə saxlanılmış, Ordubad Texniki Peşə və Sürücülük Məktəbinin xalçaçı kursunu 14 müdavim başa vurmuşdur. Həmçinin Naxçıvan Şəhər Peşə Liseyində toxucu kursunda 13 müdavim təhsilini davam etdirmişdir. Qeyd olunan dövrdə Qaz avadanlıqlarının təmiri və istismarı üzrə çilingər ixtisasartırma kursuna 11 nəfər cəlb olunmuş, Təhsil Nazirliyinin təşkil etdiyi Qazanxana maşinisti, Gözətçi və Bufetçi kurslarını, ümumilikdə, 164 nəfər bitirmişdir. Birinci rübdə ümumtəhsil məktəblərinin yuxarı siniflərində təhsil alan 2 min 581 şagirdə əmək bazarının tələbinə uyğun peşə və ixtisaslar barədə məlumatların verilməsi onların gələcək məşğulluq istiqamətlərinin sağlam təməllər üzərində qurulması üçün xüsusi əhəmiyyət kəsb edir.

Sağlam və təhlükəsiz cəmiyyətin formalaşması üçün cəzaçəkmə müəssisələrindən azad olunan şəxslərin məşğulluğunun təmin edilməsi əsas faktorlardandır. Məhkum azadlığa buraxıldıqdan sonra sosial adaptasiya prosesinin vacib elementlərindən biri onun müvafiq işlə təmin olunmasıdır. Birinci rübdə cəzaçəkmə müəssisələrindən azad olunan 1 şəxsə 20 baş xırdabuynuzlu heyvan, 1 şəxsə qaynaqçı avadanlıqları və ləvazimatları, 1 şəxsə isə miniyerşumlayan aqreqat verilmişdir. Ümumilikdə, 3 şəxsin özünüməşğulluq proqramına cəlb olunması onların cəmiyyət həyatına qoşulmasına imkan yaratmışdır.

Azadlığa buraxılanlar qədər məhdud fiziki imkanlı şəxslərin də cəmiyyətə inteqrasiya olunması mühüm sosial əhəmiyyətli istiqamətlərdən birini təşkil edir. Sağlamlıq imkanları məhdud şəxslərin məşğulluğunun təmin olunması onların maddi rifahını yaxşılaşdırmaqla bərabər, bu şəxslərdə özünəinamın möhkəm təməllər üzərində formalaşmasına da səbəb olur. Proqramın icrası məqsədilə sağlamlıq imkanları məhdud və evdar qadınlarla bağlanmış müqavilə əsasında birinci rübdə 700 yun jilet toxunaraq hərbi hissələrə, 1084 səməni hazırlanaraq bayram sovqatı ilə birlikdə sağlamlıq imkanları məhdud şəxslərə təqdim edilmişdir. Eyni zamanda 18 məhdud fiziki imkanlı qadına toxuculuq peşəsinin öyrədilməsi ilə bağlı təlim keçirilmişdir. Heydər Əliyev Sarayında məhdud fiziki imkanlıların və istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satışda 514 şəxsin 7 mindən çox rəsm və əl işi nümayiş olunmuşdur. Sərgi-satışda, ümumilikdə, 278 müəllifin 26 min 557 manat dəyərində 2 min 583 rəsm və əl işi satılmışdır. Bütün bunlarla yanaşı, birinci rübdə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində və "Saat Meydanı"nda keçirilən sərgi-satışlarda 48 istedadlı qadının və 7 sənətkarın əl işinin satışı təmin edilmişdir.





Naxçıvanda həyata keçirilən sosial əhəmiyyətli tədbirlərin mühüm istiqamətlərindən birini də aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi təşkil edir. Görülən işlər sosial müdafiəyə ehtiyacı olan şəxslərin fəal həyat mövqeyinin formalaşmasına imkan yaradır. Proqramın icrasına uyğun olaraq birinci rübdə Naxçıvan şəhəri, Babək, Ordubad və Culfa rayonları üzrə dövlət və özəl müəssisələrdə sosial müdafiəyə xüsusi ehtiyacı olanların və işə düzəlməkdə çətinlik çəkənlərin işlə təmin olunması məqsədilə 2021-ci il üçün 105 kvota yeri müəyyən olunmuşdur. Yanvar-mart aylarında 78 sosial qayğıya ehtiyacı olan ailənin özünüməşğulluğu təmin edilmişdir ki, onlardan 49-na 98 baş iribuynuzlu, 19-na 380 baş xırdabuynuzlu heyvan, 6-na miniyerşumlayan aqreqat, 1-nə döşəmə hamarlayan dəzgah, 2-nə dərzi, 1-nə qaynaqçı avadanlıqları verilmişdir. Bu istiqamətdə həvəsləndirici tədbirlər də davam etdirilmiş, özünüməşğulluğun təmin olunması məqsədilə əvvəlki dövrlərdə aktiv verilən ailələrin təsərrüfatlarında monitorinqlər aparılmışdır. Aparılan monitorinqlər nəticəsində əlavə olaraq təsərrüfatını nümunəvi şəkildə inkişaf etdirən Şərur rayonu üzrə 2 ailəyə arpa-buğda qıran, Sədərək rayonu üzrə 1 ailəyə otdoğrayan aqreqat verilmişdir. Görülən tədbirlər aztəminatlı ailələrin əmək potensiallarının reallaşdırılması yolu ilə gəlirlərinin artırılmasına və ailə bizneslərinin qurulmasına imkan yaradacaqdır.





Məşğulluq siyasətinin mühüm istiqamətlərindən birini də qeyri-formal məşğulluğun qarşısının alınması təşkil edir. Qeyri-formal məşğulluq işçini sosial təminat hüquqlarından məhrum edir. Bu həm də vergi və sosial sığorta daxilolmalarına ciddi zərər vurur. Birinci rübdə əmək müqaviləsi bildirişlərinin elektron informasiya sistemində qeydiyyata alınmasına dövlət nəzarətini həyata keçirmək məqsədilə muxtar respublika ərazisində fəaliyyət göstərən sahibkarlıq obyektlərində monitorinqlər aparılmışdır. Aparılan monitorinqlər zamanı 32 obyektdə 51 işçinin əmək müqaviləsi qüvvəyə minmədən işə cəlb edildiyi müəyyənləşdirilmişdir. İşçilərin müvafiq əmək müqaviləsi bildirişlərinin elektron informasiya sisteminə daxil edilməsinə dair işəgötürənlərə yazılı xəbərdarlıq edilmiş, bu xəbərdarlıqların icra müddətinin təmin olunması diqqətdə saxlanılmışdır.

Əməyin mühafizəsinin təşkili insan amilinə verilən dəyərin mühüm göstəricisidir. Bu istiqamətdə həyata keçirilən tədbirlər işçilərin sağlamlığının qorunması ilə yanaşı, onların bədbəxt hadisələrdən sığorta olunmasını da təmin edir. Təhlükəsiz və sağlam əmək şəraitinin yaradılması, işçilərin əməyin mühafizə qaydalarına riayət etməsinə nəzarət olunması Dövlət Proqramında müəyyənləşdirilən mütərəqqi tədbirlərdəndir. Bu məqsədlə yanvar-mart aylarında muxtar respublika üzrə 21 obyektdə nəzarət həyata keçirilmiş, fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etməyən 21 işçi həmin vasitələrlə yerində təmin edilmiş, 2 işçi müvəqqəti olaraq tikinti sahəsindən uzaqlaşdırılmışdır. Eyni zamanda istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta üzrə, ümumilikdə, 28 min 477 nəfərlə sığorta müqaviləsi bağlanmışdır.

Əməkçi miqrantların çalışdıqları iş yerlərində müvafiq statusa və iş icazəsinə malik olmalarına, onların əmək fəaliyyətlərinin qanuniliyinə nəzarət edilməsi bir tərəfdən əmək bazarında ixtisassız əcnəbi kadrların iştirakının qarşısını alır, digər tərəfdən, yerli əmək ehtiyatlarından səmərəli istifadəyə imkan verir. Birinci rübdə bu məqsədlə işəgötürənlər arasında maarifləndirmə tədbirləri davam etdirilmiş, muxtar respublika ərazisində haqqıödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün müraciət edən 55 əcnəbiyə iş icazəsi ilə bağlı rəy verilmişdir. Həmçinin bu dövrdə qanunsuz əmək fəaliyyəti ilə məşğul olan 1 əcnəbi barədə qanunvericiliyə uyğun tədbir görülmüşdür.

Yanvar-mart aylarında Dövlət proqramının icrası barədə Naxçıvan Dövlət Televiziyasında "İnkişaf edən Naxçıvan" və "Sosial həyat" verilişləri hazırlanmış, "Nuhçıxan" İnformasiya Agentliyinin saytında 2 material yerləşdirilmiş, "Şərq qapısı", eləcə də rayon və şəhər qəzetlərində müxtəlif mövzularda 18 yazı dərc olunmuşdur.

**"Şərq qapısı"**

# Xüsusi təyinatlı və avtomobil nəqliyyatı vasitələri yaz-yay mövsümi istismarı şəraitinə keçirilib




Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin xüsusi təyinatlı və avtomobil nəqliyyatı vasitələrinin yaz-yay mövsümi istismarı şəraitinə keçidi ilə əlaqədar Mülki Müdafiə Alayında nümunəvi məşğələ təşkil olunub.

Əvvəlcə xüsusi təyinatlı və avtomobil nəqliyyatı vasitələrinin yaz-yay mövsümi istismarı şəraitinə keçidi ilə əlaqədar əmr və göstərici məşğələnin planı şəxsi heyətə çatdırılıb.

Daha sonra xüsusi təyinatlı xilasetmə, yanğınsöndürmə və yük avtomobillərinin, digər mühəndis texnikalarının yaz-yay mövsümi istismarı şəraitinə keçidi zamanı görülən işlər, park xidmətinin, yanğından mühafizənin və tərbiyəvi işin təşkili, mühəndis avadanlıqlarına, su nasoslarına, xilasedici qayıqlara, dalğıc avadanlıqlarına, akkumulyator batareyalarına, səhra mətbəxlərinə, qaynaq aparatlarına, dizel generatorlarına, xilasetmə avadanlıqlarına, yanğın-texniki silahlara, eləcə də radiasiya-kimya kəşfiyyatı cihazlarına və rabitə vasitələrinə texniki xidmətin göstərilməsi praktik olaraq nümayiş etdirilib.

Texnikaların yaz-yay mövsümi istismarı şəraitinə keçidi zamanı istifadə olunan texniki mayelərin, turşuların və qələvilərin təhlükəsiz istifadə qaydaları və zəhərlənmələrə qarşı ilk tibbi yardımın göstərilməsi də şəxsi heyətin diqqətinə çatdırılıb.

Qeyd edək ki, Fövqəladə Hallar Nazirliyinin xüsusi təyinatlı və avtomobil nəqliyyatı vasitələrinin yanacaq-sürtkü materialları, digər zəruri ehtiyat hissələri və avadanlıqlarla təminatı mərkəzləşdirilmiş qaydada həyata keçirilir.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

*“İnsanların bir-birindən zahirdə heç bir təvafütü yoxdur. Amma qüdrət və qüvvətdə, hörmət və izzətdə fərqi çoxdur. Pəs insanın qədr və qiyməti, izzət və şərafəti, əlbəttə, elmlə bilinir”. Görkəmli pedaqoq Məhəmməd Tağı Sidqinin Ali Məclis Sədrinin Sərəncamı ilə təsdiq edilmiş “Oxunması zəruri olan kitabların Siyahısı”na daxil edilən “Məktəb hekayələri”ndə yer alan bu qısa fəlsəfi fikirlər həyatımızın ayrılmaz parçası olan elmin dəyərini, önəmini aşılamaqla onun insanoğlunu kamilliyə, müdrikliyə aparan, hörmət-izzətə yüksəldən yeganə silahdaş olduğunu təlqin edir.*

*Təhsil millətin gələcəyidir*

# Görkəmli pedaqoqun idealları müasirlik işığında...

Bəli, istənilən sahədə qazanılan uğurların təməlində mütləq şəkildə elm, bilik dayanır. Elmlərə yiyələnməkdə, ilk növbədə, əsas köməkçi ünvanımız isə hələ özümüzü tam dərindən dərk etmədiyimiz dövrdə üz tutduğumuz orta məktəbdir ki, səxavətli bilik qapılarını üzümüzə açaraq ümumbəşəri, milli-mənəvi dəyərlərlə zəngin elmlər aşılayıb doğru yol göstərməklə həyat yollarının keşməkeşlərinə, sınaqlarına hazırlayır bizi. Muxtar respublikamızın sayılıb-seçilən təhsil müəssisələrindən olan, görkəmli pedaqoq Məhəmməd Tağı Sidqinin adını daşıyan Ordubad şəhər 1 nömrəli tam orta məktəb də adına layiq nümunəvi tədrisi ilə buraya üz tutan şagirdlərin şüuruna, düşüncəsinə elm, bilik toxumu səpməklə onları sabahın bilikli, hazırcavab, dünyagörüşlü, intellektual, Vətəninə ləyaqətlə xidmət edəcək gəncləri kimi formalaşdırır...

Bu yaxınlarda müasir memarlıq elementləri ilə zəngin, gözoxşayan yaraşıqlı bina ilə təmin olunan adıçəkilən təhsil ocağına üz tutanda ilk xoş təəssürat hər cür avadanlıqlarla təchiz olunmuş, qaynar tədris prosesinin hökm sürdüyü sinif otaqlarında pedaqoji kollektivin və şagirdlərin çöhrələrindəki təbəssümdən yaranır. Təhsil ocağının direktoru, ömrünün 30 ilə yaxın bir dövrünü müəllimlik kimi məsuliyyətli peşəyə həsr edən Könül İsmayılova cari il aprelin 9-da məktəbin yeni binasının açılış mərasimində pedaqoji kollektivlə görüşündə Ali Məclis Sədrinin dediyi ***“Məktəb əvvəllər şəraitsiz vəziyyətdə idi. Bu da tədrisin müasir tələblər səviyyəsində təşkilinə maneəçilik yaradırdı. Lakin buna baxmayaraq, müəllimlərin tələbkarlığı, nizam-intizam və şagirdlərin çalışqanlığı son 5 ildə məktəbin qəbul göstəricilərində 81 faiz nailiyyətin əldə olunmasına imkan vermişdir”*** dəyərli fikirlərini xatırladaraq müəssisənin qururlu tarixinə, eləcə də çətin, məşəqqətli dövrünə nəzər salır: Görkəmli pedaqoq Məhəmməd Tağı Sidqinin 1892-ci ildə Ordubadda “Əxtər” adı ilə təsis etdiyi bu təhsil ocağı 1896-cı ildə rus-Azərbaycan məktəbinə çevrilib, Azərbaycanın ilk diplomatlarından İbrahim Əbilov, yazıçı M.S.Ordubadi ibtidai təhsillərini məhz burada alıblar. Sonralar adı, ünvanı bir neçə dəfə dəyişilən, bu günədək Azərbaycan elminə bir sıra tanınmış dilçi, bioloq, kimyaçı, tarixçi-alimlər bəxş edən Ordubad şəhərindəki 1 nömrəli tam orta məktəb şanlı tarix yazmaqla yanaşı, həm də keşməkeşli illərə, dövrün acı həqiqətlərinə sinə gərib. Belə ki, müəssisə uzun müddət sovet dönəmindən qalma, tədris şəraiti bərbad olan köhnə, yararsız binada fəaliyyət göstərib. Tozlu-torpaqlı, yarımqaranlıq siniflər, qırıq, üzəri cızma-qara partalar, sınıq-sökük pəncərələrdən külək vurduqca cingildəyən şüşələr, yağış yağdıqca daman tavan, tüstüləyən, göz çıxaran sobalar köhnə bina barədə hələ az bir təsəvvürdür. Qış aylarında soyuqdan müəllim və şagirdlər siniflərdə qalın geyimdə oturur, həm havanın, həm də şəraitin dözülməz vəziyyəti dərslərin təşkilində böyük çətinliklər yaradırdı. Məktəbimizin dünənini düşünəndə ürək yanğısı ilə ingilis filosofu Frensis Bekonun gözəl bir fikri də yadıma düşür: “Kitablar – zamanın dalğaları ilə səyahət edən və nəsildən-nəslə öz qiymətli yükünü ehtiyatla aparan fikir gəmiləridir”. Bəli, kitablar bizim mənəvi qidamızdır, mütaliəsiz insan isə ruhsuz bədən kimidir. Məktəbimizin acınacaqlı vaxtlarında o qiymətli yükü itirmək təhlükəsi ilə üz-üzə qalanda daim görkəmli filosofun bu dərin məzmunlu fəlsəfi fikirlərini xatırlayaraq əlimizdən gələni etmişik ki, tüstü, his, yağış mənəviyyat xəzinəsi ilə zəngin olan kitabxanamıza xətər toxundurmasın. Təqdirəlayiq haldır ki, bütün sınaqlardan üzüağ çıxdıq və əsas odur ki, öz məsuliyyətimizi itirmədik, daim nümunəvi olmağı, sayılıb-seçilən təhsil ocaqları arasında yerimizi qorumağı, öncüllüyümüzü saxlamağı bacardıq. Təkcə bir faktı qeyd etmək yetər ki, pedaqoji kollektivin yorulmaz fəaliyyətinin, əzmkarlığının hədər getmədiyi aydın olsun. Belə ki, son 5 ildə təhsil ocağını 114 şagird bitirib ki, onların 94-ü ali məktəblərə qəbul olub, 17-si 500-700 intervalında bal toplayıb. Ötən tədris ilində isə məktəbin 20 məzunundan 18-i ali məktəblərə qəbul imtahanında uğurla iştirak edərək tələbə adını qazanıb. Cari tədris ilində də gözləntilərimiz böyükdür...


Dünən


Məktəb
Bu gün





Könül İsmayılova qeyd edir ki, əvvəllər siniflərin bir neçəsində elektron lövhə olsa da, internetə çıxış imkanlarının zəifliyi, elektrik xətlərinin nasazlığı dərs prosesində ləngimələrə yol açırdı lakin dövlətimizin qayğısı sayəsində artıq bütün bu çətinliklər arxada qalıb, şagirdlər hər gün müasir tədris vasitələrindən istifadə etməklə biliklərini daha da zənginləşdirir, kompüterlə dünyanın istənilən nöqtəsi barədə məlumatlar öyrənir, laboratoriyalarda praktik vərdişlərə yiyələnirlər. Təbii ki, məktəbimizin zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan 612 şagird yerlik yeni binasında bütün bu və digər sadalamadığım üstünlükləri yaratmaqda dövlətin bir məqsədi var: savadlı, dünyagörüşlü gənclər formalaşıb Vətənimizin, dövlətimizin xoşbəxt gələcəyini, firavan sabahlarını təmin etsin. Məhz 2-nin “Azərbaycan Respublikasının Əməkdar müəllimi” fəxri adına, 2-nin isə “Tərəqqi” medalına layiq görüldüyü 41 müəllimin də qarşısında duran əsas vəzifə dövlətimizin bu ali məqsədinin reallaşmasına çalışmaqdır və əminik ki, növbəti tədris illərində bizə göstərilən yüksək etimadı layiqincə doğrulda biləcəyik.

Ordubad şəhər 1 nömrəli tam orta məktəbin yeni binası ilə tanışlıq zamanı onu da öyrənirəm ki, burada 2 kompüter, 1 elektron lövhə, 3D printer, robotların hazırlanması üçün müxtəlif elektron hissə və alətlər, mikrobit, arduino setləri və digər qurğularla təchiz edilmiş, müasirdüşüncəli hər bir məktəblinin arzusunda olduğu STEAM kabinəsi də yaradılıb. Kabinədə dərsləri tədris edən, muxtar respublika Təhsil Nazirliyinin təşkil etdiyi təlimdən müvəffəqiyyətlə keçib sertifikat alan Natəvan Fərzəliyeva deyir ki, özündə elm, texnologiya, mühəndislik, riyaziyyat və incəsənət sahələrini birləşdirən sözügedən müasir metodun hədəfi şagirdlərdə müstəqil düşüncəni inkişaf etdirmək və əldə olunan biliklərin layihə təlimi ilə səmərəli tətbiqinə nail olmaqdır. Sadə dillə desək, bu yeni üsul əvvəllər tədris olunan əmək təlimi dərslərinin müasir, daha da təkmilləşdirilmiş formasıdır. Kabinədə şagirdlər 3D modelləşdirmə, mikrobit, arduino ilə işləmə biliklərinə, kommunikasiya, komandada çalışmaq, kritik və yaradıcı düşüncəni tətbiq etmək kimi XXI əsr bacarıqlarına yiyələnirlər ki, bu da gələcəkdə yüksək təfəkkürlü, yenilikçi gənclərin yetişməsi ilə yanaşı, muxtar respublikamızda iqtisadiyyat, təhsil, mədəniyyət və digər sahələrə innovativ üsulların, yeni istehsalat metodlarının sirayətinə yol açacaq.

Ötən il müzəffər Ordumuzun 44 gün ərzində düşmən üzərində qazandığı Böyük Zəfər illərdir, orta məktəblərdə keçilən Gənclərin çağırışaqədərki hazırlığı fənninin önəmini, əhəmiyyətini tam mənada ortaya çıxardı. Təsadüfi deyil ki, Ali Məclisin Sədri Ordubad şəhərindəki 1 nömrəli tam orta məktəbin yeni binasının açılış mərasimində hərbi hazırlıq kabinəsinə baxış zamanı gənclərə hərbi-vətənpərvərlik işinin düzgün təşkilinin əhəmiyyətini vurğulayaraq hərbi hazırlıq fənninin tədrisinin yüksək səviyyədə aparılması barədə tapşırıq verdi. Həmin tapşırıq və tövsiyələrə uyğun fəaliyyətin qurulduğunu bildirən məktəbin hərbi rəhbəri Hüseyn Hacıyev deyir ki, bu fənn şagirdlərin hərbi biliklərlə ilkin tanışlığı, ordumuz haqqında, qazanılan qələbələr, döyüşlərlə bağlı müfəssəl məlumatların, hərbi nizamnamə qaydalarının mənimsədilməsinə, habelə ilkin tibbi yardım, mülki müdafiə bacarıqlarının aşılanmasına xidmət edir. Orduda qulluq edən zabitlərin vaxtaşırı məktəbə gəlib gənclərlə görüşməsi də, şübhəsiz, tədrisə əsaslı təsir göstərərək müsbət nəticələr verir. Həmçinin ildə bir neçə dəfə təhsil müəssisələrinin hərbi rəhbərləri üçün hərbi hissələrdə təlim təşkil edilir. Həmin təlimlərdə iştirak edən müəllimlər hərbin yenilikləri ilə tanış olur, müasir texnikaların sirlərini öyrənirlər. Hazırda tədris olunan dərsliklərdə müasir silahlar, raketlər, Azərbaycan Ordusunun arsenalına daxil olunan silah və texnikalar barədə məlumatlar geniş şəkildə yer alıb. Onu da xüsusilə qeyd etmək lazımdır ki, ötən il Vətən müharibəsində qazanılan Böyük Qələbə də məktəblilərə böyük ruh yüksəkliyi bəxş etməklə onların vətənpərvər ruhda tərbiyəsinə əhəmiyyətli təsir göstərib. Ümumilikdə, məktəbdə olan əyani vəsaitlər, yaradılan şərait şagirdlərin hərbi xidmətə ilkin hazırlığı üçün zəngin bazadır və çalışacağıq ki, bu dərslərin təşkili öz effektivliyini daha da artırsın.

Təhsil ocağı ilə tanışlıq zamanı o da məlum olur ki, Ali Məclis Sədrinin 2020-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı”na uyğun olaraq məktəbdə ağır atletika idman klubu yaradılıb. Klubun fəaliyyəti üçün 1 velosiped, 1 xizək, 3 universal güc, 3 ağırlıqqaldırma trenajorları, 3 dəst 30 kiloqramlıq ağırlıqqaldırma aləti, 15 kiloqramlıq 8 rezin qantel alınıb ki, bu da şagirdlərdə ağır atletikaya böyük maraq yaratmaqla yanaşı, muxtar respublikada idmanın bu növünün inkişafına təkan verir. Bu günlərdə Naxçıvan Muxtar Respublikası Atletika Federasiyası tərəfindən məşqçilər və idmançılar üçün ustad dərsləri də təşkil olunub. Təqdirəlayiq haldır ki, ötən illər ərzində məktəbin şagirdləri basketbol, voleybol, futbol və yüngül atletika üzrə muxtar respublika, ölkə və beynəlxalq səviyyəli yarışlarda öz güclərini sınayaraq uğurlu nəticələr qazanıblar. Məktəbin yeni binasında bütün idman növlərinə uyğun əlverişli şərait qurulub, müasir dövrün tələbləri, uşaqların marağı nəzərə alınaraq iki şahmat sinfi də yaradılıb ki, burada dərslər nəzəri biliklərlə praktik vərdişlərin qarşılıqlı surətdə inkişafına əsasən keçilir. Təhsil müəssisəsinin 8-ci sinfində oxuyan Hüseyn Seyid yaş qrupuna uyğun bu zəka idman növü üzrə 2015-ci ildə Azərbaycan 2-si, 2016-cı ildə isə 3-sü olub. 2017-ci ildə ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 94 illiyi ilə əlaqədar Naxçıvanda keçirilən Beynəlxalq Şahmat Festivalında “C” qrupunun qalibi olan Hüseyn deyir ki, yeni binadakı müasir şərait, xüsusilə də hər cür avadanlıqlarla təchiz olunan şahmat sinifləri zəka idman növünü sevən hər bir şagirdi hədsiz sevindirib, məktəb yoldaşları adından yaradılan imkanlara görə dövlətimizə minnətdarlıq edir və öz nümunəvi təhsilləri ilə göstərilən qayğıya layiq olacaqlarına söz verir...

“Məktəb bizim elm və maarifimizin vasitəsi, dünya və axirətimizin səadətinin səbəbidir”, – deyən görkəmli maarifpərvər Məhəmməd Tağı Sidqinin ümumbəşəri idealları əsasını qoyduğu, müasir görkəminə qovuşan məktəbdə dövrün çağırışlarına uyğun yaşadılır və inkişaf etdirilir. Təhsil ocağında oxuyan 351 şagirddən 60-nın adının şərəf lövhəsində olması, hər tədris ilinin sonunda keçirilən qəbul imtahanlarında, eləcə də il ərzində təşkil edilən respublika fənn olimpiadalarında, müsabiqələrdə, sərgilərdə, intellektual yarışlarda qazanılan uğurlar isə kollektivin həm dövlətimizin göstərdiyi diqqət və qayğıya, həm də görkəmli pedaqoqun əziz xatirəsinə layiqli hesabatıdır. Yeni binada yeni nailiyyətlərin əldə olunması diləyi ilə...

✍ **Nail ƏSGƏROV**

## Nizami Gəncəvinin söz dünyası



2021-ci ildə dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyi tamam olur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə bu il ölkəmizdə “Nizami Gəncəvi ili” elan edib. Bu məqsədlə muxtar respublikamızda da yubiley tədbirləri davam edir.

Naxçıvan Müəllimlər İnstitutunda “Nizami Gəncəvinin söz dünyası” mövzusunda elmi-nəzəri konfrans keçirilib. Konfransı giriş sözü ilə açan rektor Azad Novruzov qeyd edib ki, Azərbaycanın zəngin ədəbi irsi və mədəniyyətinin qorunub saxlanması, gələcək nəsillərə çatdırılması Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin hər zaman diqqət mərkəzində olmuşdur. Ölkəmizdə 2021-ci ilin “Nizami Gəncəvi ili” elan edilməsi də məhz bunun təzahürüdür. Nizami Gəncəvi ədəbiyyatımızda başəri ideyaları, yüksək sənətkarlığı və insan taleyi haqqında humanist düşüncələri ilə seçilən şairlərdəndir. Şərq intibahının zirvəsi olan Nizami yaradıcılığında həmin dövrün ən humanist, ümumbəşəri ictimai-siyasi və sosial mənzərəsi bədii əksini tapmışdır.

Konfransda institutun əməkdaşlarından dosent Şəhla Fətəliyeva, professor Yusif Səfərov, dosent Həsənəli Eyvazov, sənətşünaslıq üzrə fəlsəfə doktoru Həbibə Allahverdiyeva müxtəlif mövzularda çıxış etmişlər.

Konfrans bölmələr üzrə davam etmiş, tələbələrin ifasında şairin qəzəlləri və əsərlərindən parçalar səsləndirilmişdir.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti***

## 5 may – Xalçaçı Gününə həsr olunmuş açıq dərs



***Mayın 5-də Naxçıvan Dövlət Xalça Muzeyində Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin hamiliyinə verilmiş Naxçıvan Dövlət Universitetinin muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması ixtisası üzrə təhsil alan tələbələrinə “5 may Xalçaçı Günüdür” mövzusunda açıq dərs keçilmişdir.***

Nazirliyin təşkilatçılığı ilə keçilən dərsdə giriş sözü ilə çıxış edən nazirliyin şöbə müdiri Gülbuta Babayeva bildirmişdir ki, Azərbaycanın mühüm mədəniyyət mərkəzlərindən olan Naxçıvanda xalçaçılıq sənəti qədim tarixə və ənənələrə malikdir. Son 30 ilə yaxın bir dövrdə Naxçıvan xalçalarını qorumaq, xalçaçılıq ənənələrini yaşatmaq, gələcək nəsillərə ötürmək məqsədilə muxtar respublikamızda bir sıra tədbirlər həyata keçirilir, xalçatoxuma emalatxanaları, xalçaçılıq kursları fəaliyyət göstərir.

Açıq dərsdə Naxçıvan Dövlət Xalça Muzeyinin direktoru Ülviyyə Məmmədova, memarlıq üzrə fəlsəfə doktoru Gülnarə Qənbərova, tarix üzrə fəlsəfə doktoru Məmməd Əliyev çıxış etmişlər.

Tələbələr xalça toxunması ilə əyani tanış olmuş, onlara muzeyin ekspozisiyası haqqında məlumat verilmişdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## İlk dəfə Naxçıvanda keçirilən ölkə çempionatı yüksək təşkilatçılığı ilə fərqlənir

İlk dəfə olaraq Naxçıvanda təşkil edilən şahmat üzrə kişilər arasında Azərbaycan çempionatında artıq iki tur geridə qalıb. Keçirilən görüşlərdən sonra Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Faiq Həsənov və muxtar diyarımızda mübarizə aparan zəka sahiblərinin fikirlərini öyrəndik.

***Faiq HƏSƏNOV – Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti:*** – Bakıdan kənarda keçirilən ilk Azərbaycan çempionatının belə yüksək səviyyədə təşkilinə görə muxtar respublika rəhbərinə, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədrinə öz minnətdarlığımızı bildiririk. Burada qonaqlar və şahmatçılar üçün hər bir şərait yaradılıb. Xüsusilə oyunların səhnədə keçirilməsi şahmatımız üçün yenilikdir. Uzun illərdir ki, biz Naxçıvanda təşkil olunan beynəlxalq turnirdə iştirak edirik və buraya dünyanın 20-dən çox ölkəsindən qonaqlar, şahmatçılar gəlir, dəvət olunurlar. Həmin turnirlərin yüksək səviyyədə təşkil edilməsi Naxçıvanda şahmata olan diqqətin nə dərəcədə olduğunun göstəricisidir. Bunu mən hər zaman digər yarışlarda da deyirəm və muxtar respublikanı nümunə göstərirəm. Şadam ki, növbəti Azərbaycan çempionatına Naxçıvan ev sahibliyi edir və bunun öhdəsindən layiqincə gəlir. Bir daha yarışın yüksək səviyyədə təşkilinə, qonaqpərvərliyə və yaradılan şəraitə görə muxtar respublika rəhbərinə minnətdarlığımı bildirirəm.



***Vasif DURARBƏYLİ – qrossmeyster:*** – Artıq bir ildən çoxdur ki, şahmat yarışlarında iştirak etmirdik. Şadam ki, geri döndük və mübarizə qaldığı yerdən davam edir. Ötən il Azərbaycan çempionatı keçirilmədi, bu yarışda isə ilk turdan etibarən gərgin mübarizə gedir, iştirakçıların hər biri bir-birilə rəqabət aparacaq gücdədirlər. Ümid edirəm ki, idman mübarizəsi ən yüksək səviyyədə olacaq. Bu turda beynəlxalq qrossmeyster Fərid Abbasov üzərində qələbə qazandım və burada bəxtimin gətirdiyini də deyə bilərəm. Çünki Fərid Abbasov mənim hazırlığıma düşdü. Digər oyunlarda şansı dəyərləndirmək çətin olar. Yarış yeni başlayıb, "bir güllə bahar olmaz", – deyirlər. Bu turda qələbə qazandımsa, bu o demək deyil ki, digər oyunlarda da bu sevinci yaşayacağam. Çox ağır və gərgin oyunlar bizi gözləyir. Naxçıvanda keçirilən Beynəlxalq Şahmat Festivalı barədə məlumatım var. Təəssüflər olsun ki, pandemiya ilə əlaqədar olaraq keçirilmir. Azərbaycan çempionatının təşkilatçılığından çox razıyam və yüksək səviyyədədir.



***Nicat MƏMMƏDOV – qrossmeyster:*** – Azərbaycan çempionatının Bakıda keçirilməyinə artıq öyrənmişdik. Naxçıvanda təşkil olunması isə həm sürpriz, həm də xoş oldu. Bilirdik ki, burada təşkil olunan bütün yarışlar yüksək səviyyədə olur. Bundan öncə dəfələrlə Naxçıvan Beynəlxalq Şahmat Festivalında iştirak etmişəm və 2018-ci ildə qalib adını qazanmışam. Hər zaman gözəl və yüksək səviyyədə təşkil olunub. Buna görə Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasına minnətdarlığımı bildirirəm. Azərbaycan çempionatında zəif rəqiblər iştirak etmir. Burada seçilmiş 12 zəka sahibi mübarizə aparır və şahmat tariximizdə ilk dəfədir ki, bir yarışda 8 qrossmeyster və 4 beynəlxalq usta iştirak edir. Hər bir oyun mürəkkəb keçir və buna artıq alışmışıq. Son turda qələbə qazandım və bunu digər turlarda da davam etdirmək istəyirəm.



***Eltac SƏFƏRLİ – qrossmeyster:*** – Digər yarışlarda olduğu kimi, şahmat üzrə Azərbaycan çempionatı da Naxçıvanda yüksək səviyyədə təşkil olunub. Ümumiyyətlə, dünyanın çox az ölkələrində çempionatlar bu cür keçirilir. İlk turda naxçıvanlı qrossmeyster Urfan Sevdimalıyevlə qarşılaşdım. Oyun elə də asan keçmədi, üstünlüyü ələ ala bildim və qələbə qazandım. İkinci turda isə heç-heçə etdim. Hələ turnirin başa çatmasına bir neçə tur var və burada rəqiblərin hamısı bir-birindən güclüdür. Bir ildən çoxdur, yarışlarda iştirak etmirəm. Çalışacağam digər oyunlarda da qələbə qazanam və Naxçıvanı titulla tərk edəm.



***Vüqar ƏSƏDLİ – qrossmeyster:*** – Naxçıvanda təşkil olunan çempionat şahmat tariximizdə ən güclü çempionatdır və ilk dəfədir ki, Bakıdan kənarda keçirilir. Hər şey yüksək səviyyədə təşkil olunub və ümid edirəm, bu təkcə mənim üçün yox, digər şahmatçılarımız üçün də uğurlu alınar. Bir ildən çoxdur, böyük yarışlarda iştirak etmirdik. Düzdür, onlayn olaraq yarışlara, turnirlərə qatılır, oyunlar oynayırdıq. Lakin bir az passivlik hiss olunur və bu da oyunlarımıza təsirsiz ötüşmür. Çox şadam ki, nəhayət, belə bir ölkə çempionatı, özü də Naxçıvanda çox yüksək səviyyədə təşkil olundu. Bütün iştirakçılara uğurlar arzu edirəm.



✍ Ceyhun MƏMMƏDOV

## Çempionatda ikinci tura yekun vurulub

***Muxtar respublikada ilk dəfə təşkil olunan şahmat üzrə kişilər arasındakı Azərbaycan çempionatında ikinci tura yekun vurulub.***



İlk turla müqayisədə bu tur zəka sahibləri arasındakı görüşlər tərəflərin qələbəsi ilə başa çatıb. Qrossmeyster Eltac Səfərli (2598) ikinci turu "sülh"lə başa vurub. O bu turda beynəlxalq usta Kənan Qarayevin (2331) müqavimətini qıra bilməyib. Qrossmeyster Nicat Abasovla (2665) qrossmeyster Vüqar Əsədlinin (2572) görüşündə də qalib tərəf müəyyənləşməyib. Qrossmeyster Misrətdin İsgəndərov (2535) beynəlxalq usta Məhəmməd Muradlı (2449) ilə xalları yarı böldüyü halda, qrossmeyster Fərid Abbasov (2528) qrossmeyster Vasif Durarbəyliyə (2606) məğlub olub. Beynəlxalq usta Aydın Süleymanlı (2520) ilə beynəlxalq usta Abdulla Qədimbəylinin (2470) oyununda ağ-qara taxtanı gülən tərəf kimi Aydın tərk edib. Şahmatçımız qrossmeyster Urfan Sevdimalıyev (2369) bu turda qrossmeyster Nicat Məmmədovla (2609) üz-üzə gəlib və məğlub olub.

Qeyd edək ki, dairəvi sistem üzrə keçirilən çempionatda 12 zəka sahibi mübarizə aparır.

Bu gün üçüncü turun görüşləri keçiriləcək. Bu turda azarkeşlər aşağıdakı görüşlərə şahidlik edəcəklər:

*Vüqar Əsədli - Aydın Süleymanlı*
*Abdulla Qədimbəyli - Məhəmməd Muradlı*
*Misrətdin İsgəndərov - Vasif Durarbəyli*
*Fərid Abbasov - Eltac Səfərli*
*Kənan Qarayev - Nicat Məmmədov*
*Urfan Sevdimalıyev - Nicat Abasov*

Görüşlər saat $14^{00}$-da başlayacaq.

## AFFA rəsmiləri Naxçıvana səfər edib




Naxçıvan Futbol Federasiyasının dəvəti ilə AFFA-nın baş katibinin müavini Sərxan Hacıyev, texniki direktor Cahangir Həsənzadə və Kütləvi Futbol Departamentinin müdiri Fərrux İsmayılov Naxçıvan şəhərinə səfərə gəlib.

Səfər çərçivəsində AFFA-nın nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri, Naxçıvan Futbol Federasiyasının prezidenti Azad Cabbarovla görüşüb, müxtəlif futbol tədbirlərinin təşkili, kütləviliyin artırılması ilə bağlı fikir mübadiləsi aparıb.

Sonra AFFA rəsmiləri bir müddət öncə istifadəyə verilmiş Uzunoba Təlim-Məşq İdman Kompleksinə gedərək burada yaradılmış şəraitlə yaxından tanış olublar.

✍ Ceyhun MƏMMƏDOV

## 147 muxtar respublika məktəblisi müsabiqədə final mərhələsinə vəsiqə qazanıb



Ümumtəhsil məktəblərinin VI və VII sinif şagirdləri arasında keçirilən məktəblilərarası fənn müsabiqələrinin I mərhələsinin nəticələri elan olunub. Naxçıvan Muxtar Respublikasında ilk dəfə olaraq keçirilən müsabiqədə 147 muxtar respublika məktəblisi final mərhələsində iştirak etmək hüququ qazanıb. Müsabiqənin final mərhələsinin may ayının sonunda keçirilməsi nəzərdə tutulmuşdur.

Qeyd edək ki, riyaziyyat və informatika fənləri üzrə VI, fizika, kimya və biologiya fənləri üzrə VII sinif şagirdləri arasında keçirilən müsabiqənin I mərhələsində muxtar respublikadan, ümumilikdə, 470 şagird öz bilik və bacarıqlarını nümayiş etdirmişdir.

Fənn müsabiqələrinin keçirilməsində əsas məqsəd istedadlı uşaqların aşkar olunması, şagirdlər arasında sağlam rəqabət mühitinin yaradılması, aşağı sinif şagirdlərinin müxtəlif fənlərə olan marağının artırılması, onlarla məqsədyönlü işlərin aparılması və beynəlxalq olimpiadalara hazırlaşdırmaqdan ibarət olub.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi***

### Naxçıvan Muxtar Respublikası üzrə 2021-ci ilin aprel ayında verilən elektrik enerjisinin miqdarı, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Enerjinin miqdarı (min kvt/saat) | Enerjinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 3002 | 222,2 | 222,2 | 100,0 |
| 2. | Şərur rayonu | 1735 | 122,6 | 122,6 | 100,0 |
| 3. | Babək rayonu | 1593 | 113,5 | 113,5 | 100,0 |
| 4. | Ordubad rayonu | 961 | 68,1 | 68,1 | 100,0 |
| 5. | Culfa rayonu | 866 | 62,0 | 62,0 | 100,0 |
| 6. | Kəngərli rayonu | 641 | 46,6 | 46,6 | 100,0 |
| 7. | Şahbuz rayonu | 367 | 26,0 | 26,0 | 100,0 |
| 8. | Sədərək rayonu | 276 | 19,6 | 19,6 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 22049 | 1984,4 | 1982,2 | 99,9 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **31490** | **2665,0** | **2662,8** | **99,9** |

**Qeyd:** Aprel ayından texniki itki nəzərə alınmaqla verilən 31 milyon 490 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 665 min manat olmuş, cəmi 2 milyon 662 min 800 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 99,9 faizini təşkil edir.

### Naxçıvan Muxtar Respublikası üzrə 2021-ci ilin aprel ayında verilən təbii qazın həcmi, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şərur rayonu | 1851800 | 196421 | 196445 | 100,0 |
| 2. | Ordubad rayonu | 1079970 | 114161 | 114173 | 100,0 |
| 3. | Şahbuz rayonu | 571280 | 62216 | 62221 | 100,0 |
| 4. | Culfa rayonu | 1084300 | 112690 | 112697 | 100,0 |
| 5. | Kəngərli rayonu | 777130 | 81655 | 81659 | 100,0 |
| 6. | Sədərək rayonu | 300729 | 31035 | 31036 | 100,0 |
| 7. | Naxçıvan şəhəri | 2124090 | 241460 | 241466 | 100,0 |
| 8. | Babək rayonu | 2252060 | 245607 | 245607 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 8253421 | 1517120 | 1674357 | 110,4 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **18294780** | **2602365** | **2759661** | **106,0** |

**Bildiriş**

"Nəqşicahan Holdinq" Şirkətlər Qrupunun "Vağzal Kafe" MMC-nin fəaliyyəti dayandığından ləğv olunur.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 381